*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 360-364*

https://doi.org/10.62837/2026.1.360

**İSMAYILOVA TAMAM ƏLI QIZI**
**AZMİU**

# PSİXOLOGİZM- TARİXİ İNKİŞAF VƏ NƏZƏRİ YANAŞMA

***Açar sözlər: Ədəbiyyat, Obraz, Müasirlik, Nəzəriyyə, Psixologizm***
***Ключевые слова: Литература, Образ, Современность, Теория Психологизм***
***Keywords: Literature, Image, Modernity, Theory, Psychologism***

Psixologizm ədəbiyyatın ən mühüm bədii-estetik kateqoriyalarından biri olub, insanın daxili aləminin, psixoloji vəziyyətinin və mənəvi dünyasının təsvirini əsas məqsəd kimi müəyyənləşdirir. Ədəbiyyat tarixində psixologizmin formalaşması və inkişafı cəmiyyətin dünyagörüşü, fəlsəfi fikrin təkamülü və insan şəxsiyyətinə münasibətin dəyişməsi ilə birbaşa bağlıdır. Əlbəttə tarixə nəzər yetirsək psixologizmin mənbəyinin məhz insan ruhu ilə əlaqəli şəkildə birləşməsinin nəzəri və estetik cəhətlərini antik dövrdən bu günə kimi izləmək mümkündür.

Psixologizmin ilkin elementləri qədim yunan ədəbiyyatında müşahidə olunur. Homer, Sofokl, Evripid kimi müəlliflərin əsərlərində obrazların daxili hissləri, qorxu, vicdan əzabı və mənəvi seçimləri mühüm yer tutur. Antik faciələrdə insanın taleyi ilə daxili ziddiyyətləri psixoloji baxımdan təqdim edilirdi. Zamanla antik ədəbiyyatda allahlar - insan münasibəti daha irəli gedərək hələ eramızdan əvvəlki dövrlərdə insan və onun taleyi, ruhu məsələlərinə keçid alır. Yazıçını düşündürən, mərkəzdə dayanan elə insanın özüdür. Məsələn, antik ədəbiyyatın, dramaturgiyanın əsas müəlliflərindən olan Esxildən fərqli olaraq Sofokl yaradıcılığında insan psixologiyası daha dərin izlər qoyaraq insan ruhunu düşündürür. Sofokulun “Tiran Edip” faciəsi buna misal ola bilər. Əsərdə faciə daha böyük dairə alaraq genişlənir və oxucunu həyəcanlandırır. Sofokl tetralogiya sistemindən uzaqlaşaraq ayrı-ayrı faciələr yazmışdır. “Elektra”, “Antiqona”, “Filoktet”, “Ayaks” kimi əsərləri buna misaldır. “Tiran Edip” faciəsində Edipin ruhi sarsıntıları, talenin nəsliyi onu özü ilə tək başına qoyur. Bu çarəsizliyin çarəsini tapa bilməyən Edip sonsuz bədbəxtliyə qərq olur. “*Bədbəxtliyi dərk etmədən yaşamaq daha xoşdur.”* ( 4, səh 75) Və yaxud digər bir hissədə deyilir: “*Bizə nəzər sal: adamların ruhu bir-birinin ardınca, iti qanadlı quşlar kimi, ildırımdan daha artıq bir sürət ilə, gecə allahlarının hakim olduğu dumanlı sahillərə uçub gedir.*” (4, səh 20). Buradan göründüyü kimi obrazların ruhu həyəcan daxilində çırpınır. İnsan - tale münasibətlərində istərsə də allahlar və insan münasibətlərində daxili təlatümlər, ardıcıl səssiz hayqırtılar, monoloqlar daha çox yer alır. Antik ədəbiyyatda mifologiya, gözəllik, estetika, incəsənət xüsusilə insan daxili aləmi ilə bərabər səslənir. İncəsənət elə gözəllikdir. Gözəllik elə insanın daxili aləmi və təbiətdir. Mifologiya hadisələrin qaranlıq

tərəflərinin işıqlanması və anlam verilməsidir ki, bu anlam bəzən şüuraltı, təxəyyüldən kənar, bəzən isə mümkünsüzlüyün əfsanəfi düşüncəsidir. Antik ədəbiyyatda insan daxili aləminin mənəvi gücünü Esxilin "Zəncirlənmiş Promotey" əsərində görmək mümkündür. Bəli, Promotey imkansızlıq bütünü sındıraraq özüdə bilmədən bəşəriyyətə sivilizasiya ötürdü. Bu sadəcə bir əsərin sujet xətti ilə kifayətlənməyib insan daxili gücünün təcəssümüdür. "*Evrepid və Aristofanda allahlar öz puç olma boşluqlarında məhv olmalarına şahidlik edirlər:açıq-aydındır ki, antik yunan mifologiyasında, eləcədə həyatda özünü inkar məsələsi meydana cıxır*" (1,səh 24)

Beləliklə, antik ədəbiyyatdan başlayaraq insan ruhunun incə səsləri duyulmaqda davam edir. Bu səslər incə addımlarla başlayıb bəşəriyyətin əzmi ilə güclənir. Burada istər daxili və ya xarici mübarizə əks olunsun fərq etməz. Ən əsası insan öz məqsədlərinə doğru addımlayarkən ruhu onunla birlikdə qətiyyətlə addımlayır, dözür, vuruşur qalib gəlib özünü hər hansı bir halda təsdiq etmiş olur.

Orta əsrlərdə insan ruhu sarsıntıları dini xarakter alaraq Allah –insan münasibətlərinə yüksəlir. Axirət və dünya məsələləri, eləcədə insan cəmiyyət münasibətləri aktuallıq əldə etdi. Buna misal olaraq Foma Akvinskiyə görə insanin zahiri gözəlliyini onun ruhu məyyən edir. Buna misal olaraq Məryəm Ana heykəlini göstərmək olar. Bir zamanlar xarici gözəlliyi üstün tutan məsələn Afrodita kimi heykəllərin xarici gözəlliyinə işıq salanlar indi daxili nuru ilə zənginləşən Məryəm Ana heykəlinə valehedici nəzərlərlə baxir. Deməkinsan ruhu daha mükəmməliyin yeni sinifinə, mərhələsinə daxil olur. Dəyərlər ölçü, nizam, intizam xarakteri alır. İnsan bu dünyada mənəvi aləmini cilovlayır. Tək olan, vahid olan Allaha ruhunu təmiz şəkildə təhvil vermək borcunu dərk edir. Dantenin "İlahi"komediya, Con Miltonun "İtirilmiş cənnət", "Qaytarılmış cənnət", Mişel de Montenin "Təcrübələr" əsəri Avropada mifik deyil, daha real dəyərlər hədəqəsində cərəyan edir. Bəşər övladı din xadimlərinin riyakarlığı tilsimini açaraq, dinin insanlıq və mənəvi dəyərlərini dərk edərək dünyanı qavramaqda fəlsəfi istiqamət alırdılar. Beləliklə, orta əsrlər ədəbiyyatında psixoloji təsvirlər daha çox dini-fəlsəfi çərçivədə təqdim olunmuşdur. İnsanın daxili aləmi günah, vicdan və ilahi məsuliyyət kontekstində şərh edilirdi. Bu şərh ilə insan öz potensialını tanımış oldu, nəhayət ali varlıq olduğunu qavrayaraq İlahinin ona bəxş etdiyi azadlıq məhfumunu qəbul edir.

Orta əsrlər Fransız yazıçısı Mişel de Montenin "Təcrübələr" əsərində deyilir: *"Tale bizə nə xeyir, nə də şər gətirmir. Tale bizə yalnız həm xeyrin həm də şərrin xammalını və bu xammalı məhsuldar edəcək toxumu verir. Bu mənada taledən daha qüdrətli olan ürəyimiz onlardan öz istədiyi kimi istifadə edir, bununla da xoşbəxtliyimizin, həmçinin bədbəxtliyimizin yeganə səbəbkarına və idarəçisinə çevrilirik"* (3, səh 16) Orta əsrlər Avropa mədəniyyəti tipik avtoritar mədəniyyət idi, onun ideoloji və əxlaqi əsasını monoteist dinin sərt normaları təşkil edirdi. İntibah dövründə, insanın daxili aləminin fəal şəkildə araşdırıldığı dövrdə

vəziyyət kökündən dəyişdi Mədəniyyət sistemində fərdin dəyəri XVIII əsrin ortalarından etibarən xüsusilə yüksək oldu və fərdin öz müqəddəratını təyinetmə məsələsi kəskinləşdi. Obrazların hiss və düşüncələrinin reproduksiyası müfəssəl və geniş olur; personajların daxili həyatı əxlaqi və fəlsəfi axtarışlarla zənginləşir. Psixologiyanın texniki tərəfi də zənginləşir: müəllifin psixoloji povesti, psixoloji təfərrüat, yaddaş, yuxu və baxışların kompozisiya formaları, psixoloji mənzərə onu daxili nitqin qanunlarına uyğun qurmaq cəhdləri ilə daxili monoloqda görünür. Bu formalardan istifadə etməklə ədəbiyyat mürəkkəb psixoloji vəziyyətlərə yönəlir eləcədə şüuraltını təhlil etmək, mürəkkəb psixi ziddiyyətləri bədii şəkildə təcəssüm etdirmək, yəni "ruhun dialektikasının" bədii mənimsənilməsi istiqamətində ilk addımı atmaq imkanı yardır. XVIII əsr maarifçilik dövründə fərdin ağlı və düşüncəsi ön plana çəkilmiş, psixoloji motivlər rasional əsaslarla izah olunmuşdur. Psixologizmin daha yetkin forması isə XIX əsr realizm ədəbiyyatında meydana çıxmışdır. Moppasan, Balzak, Stendal, Flober, Tolstoy və Dostoyevski, Çexov kimi yazıçılar insan xarakterinin daxili mexanizmlərini dərindən təhlil etmişlər. Xüsusilə Dostoyevskinin yaradıcılığında psixologizm özünün ən yüksək mərhələsinə çatmışdır. Onun əsərlərində insan ruhunun ziddiyyətləri, şüuraltı impulslar və mənəvi böhranlar dərin psixoloji analiz obyektinə çevrilmişdir. XX əsrdə modernist ədəbiyyat psixologizmi yeni mərhələyə qaldırmışdır. Ceyms Coys, Virciniya Vulf, Ulyam Folkner, Marsel Prust kimi yazıçılar şüur axını texnikasından istifadə edərək obrazların daxili dünyasını birbaşa təqdim etmişlər. Bu dövrdə psixoloji təsvirlər daha mühüm yer tutmuş, insan mənəvi aləmi gercəkliklər qarşısında sıxılaraq özünün azadlığını genişlətmişdir. Postmodern ədəbiyyatda isə psixologizm parçalanmış şüur, identiklik problemi və insanın daxili qeyri-sabitliyi fonunda təqdim edilir.Psixologizmin elmi-nəzəri əsasları müxtəlif ədəbiyyatşünaslıq və fəlsəfi cərəyanlarla əlaqəlidir. Bu yanaşmaya görə, ədəbi obrazın davranışları onun daxili psixoloji vəziyyəti ilə şərtlənir. Xarakterin inkişafı psixoloji motivasiya əsasında izah edilir. Freydin "Psixoanalitik Yanaşmalar" əsərində deyilir: "*Psixoanalizin arxalandığı baxışa görə, psixiki olaylar dedikdə, duyğular,düşüncələr və istəklər anlaşılır və psixikada qeyri-şüuri baş verən düşüncələr və istəklər də ola bilər*. (5,səh 19) Və yaxud: *"Psixi olan elə şüuraltı olandır"* (5,səh 20)

Ziqmund Freydin psixoanaliz nəzəriyyəsi ədəbiyyatda şüuraltı, instinktlər və daxili konfliktlərin təhlilinə geniş imkan yaratmışdır. Bu yanaşma insan davranışının gizli mexanizmlərini üzə çıxarmağa yönəlmişdir.

Ekzistensial Psixologizm

Bu nəzəri istiqamət insanın azadlıq, məsuliyyət, seçim və mənasızlıq problemlərini ön plana çəkir. Jan-Pol Sartr, Albert Kamyu kimi müəlliflərin yaradıcılığında bu yanaşma açıq şəkildə müşahidə olunur. Müasirlik anlayışı XX əsrin əvvəllərindən başlayaraq cəmiyyətdə baş verən dəyişikliklərin ədəbiyyata təsirini ifadə edir. Modernist və sonrakı postmodernist estetika insanın daxili aləminə

daha cəsarətli şəkildə yanaşmış, psixologizmin genişlənməsinə şərait yaratmışdır. İnsan tənhalığı, mənəvi boşluq, identiklik böhranı kimi mövzular həm psixologizmin, həm də müasirliyin əsas nüvəsini təşkil edir. Ekzistensializm cərəyanında özgələşmə problemi Sartrın və Kamyunun əsərlərində yer alır. Avropanın mənəvi probleminə çevrilmiş özgələşmə, yadlaşma bütün bəşəriyyəti mənəvi təklik içərisində sərtləşdırır. Psixologizm insanın xarakterini yalnız davranışları ilə deyil, onun daxilində gedən mürəkkəb proseslərlə də izah edir. Bununla yanaşı bəzən sadə görünən nəzəri, diqqəti çəkməyən məsələlərin təbiiliyi daxilində əsl həqiqətlərin rəngini, çalarını görmək mümkündür. Məsələn, impressionizm cərəyanında olduğu kimi. Məhz A.P.Çexovun"Qadası","İoniç", "Hərdəmxəyal", "Mujiklər", "Ədəbiyyat müəllimi" kimi novellalarında impressionizmin ahəngi duyulur. Yazıçı gündəlik həyat tərzində kiçik məsələlərinin bizim üçün nə qədər vacib olduğunu qələm vasitəsilə canlandırmışdır. İnsan tənhalığı və peşmanlığı "Qadası" novellasında Olenkanın uğursuz təkliyi onu ətrafdakı insanlara daha səmimi şəkildə bağlayırdı. Övladının olmaması onu Saşaya bağlamışdı. Halbuki Saşanı böyütməmmışdır. Sadəcə erkən itkilər onu insan ünsiyyətə ac etmişdir. "*Ona yad olan bu uşağın yolunda,onun yanaqlarındakı batıqların yolunda,onun kartuzu yolunda Olenka bütün həyatından keçərdi, sevinclə, gözlərində şəfqət yaşları ilə keçərdi.Nə üçün? Bunu kim bilir,nə üçün?"*(2, Səh 429) "Hərdəmxəyal" novellasinda Olqa İvanovanın son peşmanlığı əri Dımovu ölümdən geri qaytara bilmədi. Maraqlısı isə novellanın sonunda Olqa öz səhvini anlayır və eyni zamanda bunu "*adicə bir səhv"*( 2,117) adlandırmaqla vəziyyəti daha da ağırlaşırırdı. Müasir ədəbiyyat psixoloji analizsiz formalaşa bilmir. Obrazların dərinləşdirilməsi üçün psixoloji metodlardan istifadə olunur. Müasir yazıçılar xarici dünyanın təsvirindən daha çox insanın daxilində baş verən prosesləri bədii ifadənin əsas məqsədinə çevirirlər. Bu mənada ədəbiyyatda psixoloji təsvirlər fəlsəfi və mədəni kontekstlə sintez halında təqdim olunur. Psixologizm və müasirlik bir-birini tamamlayan iki estetik kateqoriyadır. Onların sintezi müasir ədəbiyyatın əsas inkişaf xəttini müəyyənləşdirir. Bu yanaşma sayəsində ədəbi əsərlərdə insanın daxili dünyası daha kompleks, daha real və daha çoxcəhətli,çoxsəsli şəkildə təsvir olunur. Beləliklə, psixologizm müasirliyin əsas bədii alətlərindən biri kimi ortaya çıxır və insanın mənəvi varlığını anlamaq üçün geniş imkanlar yaradır.

**Xülasə**

Psixologizm ədəbiyyatın tarixi boyu daim dəyişən və zənginləşən bir istiqamətidir. Antik dövrdən müasir ədəbiyyata qədər insanın daxili dünyasına maraq bədii yaradıcılığın əsas məqsədlərdən biri olmuşdur. Psixologizmin nəzəri yanaşmaları ədəbiyyatın insan ruhunu daha dərindən dərk etməsinə şərait yaradır və bu istiqamət müasir ədəbiyyatşünaslıqda aktuallığını qoruyub saxlayır. Psixologizmin əsas xüsusiyyətləri biri klassik süjetdən imtina və fərdi şüurun mərkəzə çəkilməsi proresi ön plana çəkilmişdir. Müasir dövrdə modernizm və

posmodernizm cərəyanlarında zaman və məkanın subyektiv qavranılması psixologizmin yeni mərhələsini formalaşdırmışdır.

***Ismayilova Tamam Ali***

**Psychologism - historical development and theoretical approaches.**

**Summary**

Psychologism is a direction of literature that has been constantly changing and enriching throughout its history. From ancient times to modern literature, interest in the inner world of man has been one of the main goals of artistic creativity. The theoretical approaches of psychologism create conditions for literature to understand the human soul more deeply, and this direction retains its relevance in modern literary criticism. One of the main features of psychologism is the rejection of the classical plot and the emphasis on individual consciousness. In the modern era, the subjective perception of time and space in the trends of modernism and postmodernism has formed a new stage of psychologism.

***Исмаилова Тамам Али гызы***

***Психологизм - историческое развитие и теоретический подход***

**Резюме**

Психологизм – направление литературы, которое на протяжении своей истории постоянно менялось и обогащалось. С древнейших времён и до наших дней интерес к внутреннему миру человека был одной из главных целей художественного творчества. Теоретические подходы психологизма создают условия для более глубокого понимания человеческой души в литературе, и это направление сохраняет свою актуальность в современном литературоведении. Одной из главных особенностей психологизма является отказ от классического сюжета и акцент на индивидуальном сознании. В Новое время субъективное восприятие времени и пространства в течениях модернизма и постмодернизма сформировало новый этап психологизма.

**Ədəbiyyat siyahısı:**

1.Античная литература, Учеб для студентов пед,ин-тов по спец № 2101 «Рус. Яз.и лит.» А.Ф.Лосов, Г.А.Сонкина, А.А.Тахо-Годи, Москва, Просвещение, 1986, 464 с
2.Anton Pavloviç Çexov, Seçilmiş əsərləri, Bakı Öndər nəşriyyatı 2005,s 432.
3.Mişel Monten,Ləyaqətlə yaşamaq qabiliyyəti haqqında, Bakı, Qanun nəşriyyatı 2014,156 s,
4.Sofokl,Tiran Edip, Qanun nəşriyyatı, 2018, səh 80
5.Ziqmund Freyd, Psixoanalizlə ilkin tanışlıq,Bakı,Qanun nəşriyyatı,2016 səh 344

**Rəyçi:** ***prof. Cəlil Qərib oğlu Nağıyev***